*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 148-155* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.148*

# XVIII əsr Şirvan şairi Ağa Məsih Şirvani

**Nəzakət Qafqazlı**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

**Annotasiya.** Məqalədə XVIII əsr Azərbaycan ədəbiyyatının az öyrənilmiş bir sənətkarından bəhs olunur. Qeyd olunur ki, M.P.Vaqif, M.V.Vidadi və başqa görkəmli Azərbaycan şairləri kimi, Ağa Məsih Şirvani də əsərlərini əsasən ana dilində yazmışdır. O, şeirlərini həm heca, həm də əruz vəznində qələmə almışdır. Heca vəznli şeirlərində daha doğrusu qoşmalarında aşıq şeiri üslubuna yaxın olan şair, klassik üslubda qələmə aldığı əsərlərində M.Füzuli ənənələrinə sadiq qalmışdır. Onun əsərlərinin az bir qismi gəlib günümüzə qədər çatmışdır. Qədim bir nəslin nümayəndəsi olan şairdən XIX-XX əsrlərdə A.Bakıxanov, M.F.Axundzadə, M.Y.Qarabaği, A.Berje, F.Köçərli, S.Mümtaz, H.Araslı və başqaları bu və ya digər dərəcədə bəhs etmiş, əsərlərindən bəzi nümunələri üzə çıxararaq elmi və ədəbi ictimaiyyətə təqdim etmişlər. Lirik şeirlərində daha çox saf, səmimi məhəbbəti tərənnüm edən şair, yeri gəldikcə ictimai mövzularda da əsərlər yazmışdır. Onun Azərbaycan tarixinin real tarixi ilə səsləşən tarixi mənzumələri də vardır ki, məqalədə onlardan da danışılmışdır.
**Açar sözlər:** klassik ədəbiyyat, məhəbbət mövzusu, ictimai şeirlər, tarixi mənzumələr, təzkirələr, poetik ənənə

**Məqalə tarixçəsi:** göndərilib – 10.06.2025; qəbul edilib – 20.06.2025

# Agha Masih Shirvani, the poet of Shirvan in the 18th century

**Nazakat Gafgazli**
Doctor of Philosophy in Philology, Associate Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS

**Abstract.** The article talks about a little-studied poet of the 18th century Azerbaijani literature. It is noted that, like M.P.Vagif, M.V.Vidadi and other prominent Azerbaijani poets, Agha Masih Shirvani also wrote his works mainly in his native language. He wrote his poems in both syllabic and aruz meter. The poet, who is close to the style of ashug poetry in his syllabic poems, or rather in his goshmas, remained faithful to the traditions of M.Fuzuli in his works written in the classical style. Only a small part of his works have survived to this day. A representative of an ancient generation, the poet was mentioned to one degree or another by A.Bakikhanov, M.F.Akhundzadeh, M.Y.Garabaghi, A.Berje, F.Kocharli, S.Mumtaz, H.Arasli and others in the 19th-20th centuries, revealing some examples of his works and presenting them to the scientific and literary community. The poet, who mostly glorified pure, sincere love in his lyrical poems, also wrote works on social issues when appropriate. He also has historical poems that resonate with the real history of Azerbaijan, which are also discussed in the article.
**Keywords:** classic literature, love theme, public poems, historical poems, tazkiras, poetic tradition

**Article history:** received – 10.06.2025; accepted − 20.06.2025

## Giriş / *Introduction*

XVIII əsr Azərbaycan ədəbiyyatı tarixinin zəngin və məhsuldar dövrlərindən hesab olunur. Bu əsrdə şifahi xalq ədəbiyyatı ilə paralel olaraq yazılı ədəbiyyat da inkişaf etmiş, həm heca vəznində, həm də klassik şeir üslubunda dəyərli sənət nümunələri yaranmışdır.

XVIII əsrin şairləri, əsasən, keçmiş Şərq poetik ənənələrinə uyğun şəkildə poeziya nümunələri yaratmaqla yanaşı, zamanın tələbinə müvafiq olaraq formalaşmaqda olan realizmə meyil etmələri ilə də fərqlənirdilər ki, bunların sırasında bu və ya digər dərəcədə fərqlənən sənətkarlardan biri də Ağa Məsih Şirvanidir. M.P.Vaqif, M.V.Vidadi və başqa görkəmli Azərbaycan şairləri kimi, Ağa Məsih Şirvani də əsərlərini əsasən ana dilində yazmışdır. O, şeirlərini həm heca, həm də əruz vəznində qələmə almışdır. Heca vəznli şeirlərində, daha doğrusu qoşmalarında aşıq şeiri üslubuna yaxın olan şair, klassik üslubda qələmə aldığı əsərlərində M.Füzuli ənənələrinə sadiq qalmışdır. Onun əsərlərinin az bir qismi gəlib günümüzə qədər çatmışdır.

Lirik şeirlərində daha çox saf, səmimi məhəbbəti tərənnüm edən şair, yeri gəldikcə ictimai mövzularda da əsərlər yazmışdır. Onun Azərbaycan tarixinin real tarixi ilə səsləşən tarixi mənzumələri də vardır ki, onların öyrənilməsi bu günümüz üçün də aktualdır.

## Əsas hissə / *Main Part*

Ağa Məsih Şirvaninin əsli Şirvanın qədim, mötəbər sakinlərindən sayılan Sultan Dədəgünəş nəslinə mənsubdur. Professor Xeyrulla Məmmədov qeyd edir ki, "bu nəslin Şirvan torpağında səkkiz yüz ildən yuxarı bir tarixi vardır. Bir sıra mənbələrin verdiyi məlumata görə, Sultan Dədəgünəş dördüncü xəlifə, şiələrin birinci imamı Həzrət Əli ibn Əbutalibin ələmdarlarından olmuşdur" [11, s.12].

Mənbələrin verdikləri məlumatlara görə, Sultan Dədəgünəş xəlifənin əqidə və baxışlarını təbliğ edə-edə Cənubi Azərbaycandan Şamaxıya gəlib çıxmış, nəhayət, Şamaxının ön dörd kilometrliyindəki Buğurt qalasının yaxınlığındakı indiki Dədəgünəşi məskən etmiş, ilk əvvəl orada palıd və vələs ağaclarından bir daxma quraraq ibadətlə məşğul olmuşdur. "Ömrünü ibadətlə başa vuran Şeyx vəsiyyətinə görə, öz daxmasında dəfn olunmuş, qəbri ibadətgaha çevrilmişdir. S.M.Qənizadənin özünün və Firidun bəy Köçərlinin yazdığına görə, Şeyxin qəbri müsəlman və ermənilər arasında ziyarətgahdır" [11, s.12].

Sultan Dədəgünəşin nəslindən Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətləri olan bir çox görkəmli şəxsiyyətlər yetişmişdir ki, onlardan biri də Sultan Məcid Qənizadənin ulu babası Ağa Məsih Şirvanidir. Ağa Məsih Şirvaninin Sultan Məcid Qənizadənin babası olduğunu həm S.M.Qənizadənin özü, həm də F.Köçərli təsdiq etmişlər.

S.M.Qənizadə yazır: "Əsil-nəsəbim Şirvan türklərindəndir. Ulu babam "Məsih" təxəllüslü Ağa Məsih Şirvani Dədəgünəş şeyxlərindən olduğu qədim sənədlərdə təhqiq olunubdur" [11, s.12].

F.Köçərli həm "Ağa Məsih Şirvani", həm də "Sultan Məcid Qənizadə" oçerkində bu məsələdən bəhs etmişdir. Birinci oçerkində o yazır: "Ağa Məsih Şirvani Mustafa xanın zamani-hökumətinin ibtidasında Şirvanda olurmuş, özü də kamil bir vücud imiş, təbi-şeiriyyəsi də var imiş. Ağa Məsihin nəslindən indi də Şamaxıda vardır. Belə ki, mərhum şair möhtərəm ədibimiz Sultan Məcid Qənizadənin dördüncü babası hesab olunur. Ağa Məsih Molla Pənah Vaqifin və Molla Vəli Vidadinin müasiri olduğuna görə, əşar və tərzi-kəlamı onlarınkına artıq dərəcədə bənzəyir. Məşhur qövlə görə, Ağa Məsih hicrətin on üçüncü əsrinin ibtidasında İranda vəfat etmişdir" [8, s.228].

F.Köçərlinin ikinci əsərində oxuyuruq: "Sultan Məcid Qənizadənin üçüncü və ya dördüncü babası Azərbaycan şairlərindən Ağa Məsih Şirvanidir. Çox gözəl təbi varmış və əsərlərindən bizdə bir neçə şeiri vardır" [9, s.289].

Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsərinin "Nəticə" adı ilə gedən, əslində əsərə "Əlavə" rolunu oynayan, Azərbaycanın məşhur alim, yazıçı və şairləri haqqında qısa məlumat

verilən son bölümündə yaradıcılığı və əsərləri haqqında məlumat verilməsə də, Şirvanın bir çox şairləri ilə yanaşı, Nişat Şirvani və Ağa Məsih Şirvaninin də adı çəkilmişdir [6, s.252].

Ağa Məsih Şirvaninin adı Mirzə Fətəli Axundzadənin "Nəzm və nəsr haqqında" əsərində də çəkilir. Doğrudur, M.F.Axundzadə də Ağa Məsih Şirvaninin həyatı və əsərləri barədə məlumat vermir, amma onu əsərlərini çox sevdiyi Molla Pənah Vaqif və Qasım bəy Zakir səviyyəsində qiymətləndirərək yazır: "Mənim əqidəmə görə, tarixi-hicriyyədən indiyədək türk arasında şair münhəsirdir məhz bu iki şəxsə. Bir də Məsiha var imiş, xəyalatı az tapılar" [1, s.252].

F.e.n. Nadir Məmmədov qeyd edir ki, M.F.Axundzadə 1857-ci ildə qələmə aldığı "Zivər nə səzadır sənə, ey dilbəri-ziba" misrası ilə başlanan müxəmməsi Ağa Məsih Şirvaninin:

*Ey şövqi-ruxun gün kimi əşyaya mücəlla,*
*Üşşaqə tamaşayi-cəmalın fərəhəfza",*

– beyti ilə başlanan müxəmməsinə nəzirədir" [2, s.282-283].

F.Köçərli bildirir ki, Mirzə Yusif Qarabağinin məcmuəsində Ağa Məsih Şirvaninin kəlamından bir müxəmməs və bir müəşşər təb olunmuşdur" [8, s.228]. Bu qeyddən sonra müəllif Ağa Məsih Şirvaninin altı bəndlik "Var" rədifli müəşşərini, "Dəxi nə bəzənmək?!" yarımmisrası ilə tamamlanan yeddi bəndlik müxəmməs-müstəzadını və beş bəndlik "Qalmışdır" rədifli müxəmməsini kitabına daxil etmişdir [8, s.228-231].

Adolf Berje "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə" təzkirəsində şairin həyatı haqqında bir söz söyləməsə də, onun "Dəxi nə bəzənmək?!" rədifli nüxəmməs-müstəzadını "Müxəmməsi-Məsiha dər mədhi-dilbər" adı ilə əsərinə daxil etmişdir [7, s.163-164].

Hüseyn əfəndi Qayıbov da Ağa Məsih Şirvaninin yeddi bəndlik "Dəxi nə bəzənmək" müxəmməs-müstəzadını "Müxəmməsi-Ağa Məsih Şirvani. Sənəti-tərcibəndi-naqis" adı ilə "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" təzkirəsinə daxil etmişdir [10, s.158].

XX əsrin 30-cu illərinə qədərki tədqiqatçılar arasında Ağa Məsih Şirvani haqqında ən geniş və tutarlı məlumatların müəllifi Salman Mümtazdır. O, ilk dəfə "Şərq qadını" jurnalında şair haqqında qısa məlumat vermiş, onun Nişat Şirvani, Zülali ilə həməsr və dost olduğunu, bir-birilərinə nəzirələr yazdıqlarını bildirmiş, fikrinin təsdiqi üçün bu üç şairin hər biri beş beytdən ibarət olan "Verir" rədifli qəzəllərini nümunə kimi vermişdir [13, s.7-8].

Salman Mümtaz sonralar tədqiqatını genişləndirərək 1925-ci ildə "Azərbaycan ədəbiyyatı" seriyası ilə çap etdirdiyi "Ağa Məsih Şirvani" adlı kitbında şairin nəsil şəcərəsi, həyat yolu və yaradıcılığı barədə daha ətraflı məlumat verməklə bərabər, onun on əsərini də kitaba daxil etmişdir ki, bunlardan üçü qəzəl, üçü müxəmməs, biri müstəzad, biri tərcibənd, biri müsəddəs, biri isə təxmisdir [14].

Salman Mümtaz kitaba Ağa Məsih haqqında məlumat, əsərlərindən seçmələr verməklə bərabər, ona nəzirələr yazmış Faiz, Möhsün, Səlami, Vaqif, Şahid, Abulla Canıoğlu, Şakir, Qərib, Zülali, Mir Möhsün Nəvvab və Sabirin əsərlərindən də nümunələr daxil etmişdir [14, s.28-48].

Sonralar Ağa Məsih Şirvaninin əsərlərini çap edənlər mənbə göstərmədən demək olar ki, Salman Mümtazı təkrar etmiş [5, s.237-256], yalnız S.Mümtazın kitabında olmayan beş bəndlik "Bu" rədifli müxəmməsi şairin əsərləri sırasına daxil etmişlər [5, s. 240-241].

Ağa Məsih Şirvaninin təvəllüd və vəfat tarixi barədə dəqiq bilgilər yoxdur. F.Köçərli onun təvəllüd tarixi barədə bir söz deməsə də, vəfat tarixini hicri tarixinin on üçüncü əsrinin əvvəli, vəfat yerinin isə İran olduğunu güman edir [8, s. 228]. Bu tarix miladiyə çevriləndə 1785-ci il alınır.

Salman Mümtaz yazır: "Ağa Məsihin hansı tarixdə dünyaya gəldiyi məlum deyilsə də, Nadir şah ilə müasir olduğu müəyyən edilmişdir. 1155 sənei-hicriyyəsində (1742 – N.Q) Şahzadə Nəsrullah mirzə Şirvan və Ağsu qalasını Nadir şahın əmri ilə alıb, şamaxılıları Ağsuya köçürdüyü zaman Ağa Məsihin gənclik zamanı idi" [14, s.4]. Salman Mümtazın yazdığından belə məlum olur ki, Ağa Məsih Şirvani XVIII əsrin əvvəllərində anadan olmuşdur.

S.Mümtaz vəfat tarixi və dəfn olunduğu yer barədə belə yazır: “Ağa Məsihin vəfatı təxminən tarixi-hicri 1180 radələrində vaqe olaraq, Fit dağında dəfn olunmuşdur” [14, s.5]. Göstərilən tarixi miladiyə çevirəndə 1766-cı il alınır. Fit dağı isə Şamaxı şəhərinin şimal-qərbində, Sulut və Basqal kəndlərinin yaxınlığında ucalığı 1810 metr olan dağdır.

Həmid Araslı yazır: “Ağa Məsih 1749-cu ildə Şirvan yaxınlığında olan bir müharibəni təsvir etmişdir. Bu, şairin XVIII əsrin ilk rübündə anadan olduğunu göstərir. O, eyni zamanda qubalı Fətəli xanın adına “Şahnamə” də yazmışdır. Bu isə şairin 1789-cu illərə qədər sağ olduğunu aydınlaşdırır” [13, s.246]. Qeyd edək ki, tam mətni əldə olmayan, mənbələrdə cəmi iki:

*O şahdan ki,mənim şahım kəm deyil,*
*Yazam “Şahnamə” mənə qəm deyil*,

– misraları xatırlanan əsərin nə vaxt yazıldığı məlum deyil və heç şübhəsiz ki, bu əsər Fətəli xanın sağlığında, həm də hakimiyyətinin güclü, qüdrətli vaxtında yazıla bilərdi. Bu baxımdan yanaşanda, H.Araslının şairin nə vaxta qədər yaşaması haqqında ehtimalı özünü doğrultmur. Fətəli xanın 1736-cı ildə doğulub 29 mart 1789-cu ildə vəfat etdiyini nəzərə alsaq, Ağa Məsihin 1789-cu illərə qədər sağ olduğunu söyləmək ağılabatan deyil.

Filologiya üzrə fəlsəfə doktoru Səltənət Əliyeva heç bir mənbə göstərmədən Ağa Məsih Şirvaninin təxminən 1687-ci ildə anadan olmasını qeyd etmiş [4, s.505], vəfatı ilə bağlı Azərbaycan Milli Ensilkopediyasının I cildini mənbə kimi göstərərək belə yazmışdır: “Məsihi Şirvaninin 1766-cı ildə vəfat etdiyi güman edilir” [4, s.506]. Başqa bir nəşrdə də Ağa Məsih Şirvaninin doğum tarixi qeyd olunmasa da, ölüm tarixi 1766-cı il kimi göstərilir [5, s.237].

Hesab edirik ki, Ağa Məsih Şirvaninin təxminən 1766-cı ildə vəfat etdiyini söyləyənlər mənbə göstərməsələr də, Salman Mümtaza əsaslanmışlar. Deyilənləri ümumiləşdirsək belə bir qənaətə gələ bilərik ki, doğum və ölüm tarixi barədə fikir müxtəlifliyi olan şair XVII əsrin sonu və ya XVIII əsrin ilk illərində anadan olmuş, XVIII əsrin 70-ci illərinə qədər yaşamışdır.

Müasirlərinin bir çoxu kimi, Ağa Məsih Şirvaninin də ədəbi irsi tam şəkildə bizə gəlib çatmamışdır. Yuxarıda qeyd etdiyimiz kimi, sənətkarın əsərlərinin müəyyən qismi əldə olunmuşdur ki, Ağa Məsih haqqında yazanlar, əsasən bu mənbələrə istinad etmişlər. Digər tədqiqatçılardan fərqli olaraq Həmid Araslı yuxarıda göstərilən mənbələrdən əlavə M.Füzuli adına Əlyazmalar İnstitutunda (o vaxtkı Az.EARƏF) saxlanılan bir neçə cüngə müraciət edərək, şairin heca və əruz vəznində bir neçə şeirini də üzə çıxarmış, məlum tədqiqatında bunlardan istifadə etmişdir [3, s.254].

Yaradıcılığına nəzər saldıqda aydın şəkildə görmək olur ki, M.Füzuli ədəbi məktəbinə mənsub olan sənətkar XVIII əsrdə “qüvvətlənməkdə olan realist şeirə də biganə qalmamış, xalq aşıqları tərzində qoşmalar da yazmışdır” [3, s.246] ki, sadə, səmimi, anlaşıqlı dildə yazılmış bu əsərləri aşıq şeirlərindən fərqləndirmək çöx çətindir. “İçində” rədifli qoşmasına diqqət edək:

*Sənin tək canana can arzumandır,*
*Ləbin xəyalından ürəyim qandır,*
*Həsrətindən gözüm yaşı rəvandır,*
*Necə qərq olmayım sellər içində.* [3, s.246]

Ağa Məsih Şirvaninin heca vəznində yazdığı əsərləri kimi, əruz vəznində yazdığı əsərləri, xüsusilə qəzəlləri dil, ifadə xüsusiyyətlərinə görə izafətlərlə, ərəb-fars tərkibləri ilə zəngin olan klassik poeziyadan daha çox xalq şeiri ilə səsləşir.

Şairin əldə olan, S.Mümtaz tərəfindən üzə çıxarılaraq çap olunan “Verir”, “Müşküldür” və “Üçündür” rədifli qəzəlləri onun ustad bir sənətkar olduğundan xəbər verir. “Müşküldür” qəzəlində “Nedim, bərbad olur, yoxdur dağılmış könlümün yarı”, – deyən şair “Üçündür” qəzəlində yazır:

*Torpaq kimi gər olmuş isəm yollara yeksan,*
*Qurbanın olum, tutmağa damanın üçündür.* [14, s.17]

Şairin qəzəllərindən biri Nişat Şirvaninin "Verir" rədifli qəzəlinə nəzirədir. Həmin qəzəldə oxuyuruq:

*Çərxə vəfa bağlama, eyş elə gör vəqt ikən,*
*Vədə irişsə əcəl sanma ki, möhlət verir.*
*Əmməyə mümkün ola gər ləbi-dildaridən,*
*Çeşmeyi-heyvan kimi gör necə ləzzət verir.*
*Gövhəri-nəzmin Nişat, düşsə Məsih əlinə,*
*Rayici-bazar edib, aləmə şöhrət verir.* [14, s.6]

Ağa Məsih Şirvaninin qəzəlləri kimi, əldə olunan "Var" rədifli müəşşəri, "Dəxi nə bəzənmək?" müxəmməs-müstəzadı, "Gərək" rədifli müxəmməsi də məhəbbət mövzusundadır. Altı bəndlik, hər bəndin sonunda "Öldür məni, olsun əllərin var" misrası təkrarlanan müəşşərdə sevdiyinin surətini parlaq boyalarla yaratmağa müvəffəq olan sənətkar ondan aman diləmək əvəzində, əlləri ilə onu öldürməyi məşuqundan təvvəqqə edir və onun əlləri ilə ölməyi özünə şərəf, hicrandan vüsala çatmağın yolu hesab edir. Eşqində sabit olduğunu və ömrünün sonuna qədər məhəbbətinə sadiq qalacağını, lazım bilirsə onu sınağa çəkib imtahan etməyi məşuqundan rica edən şair əsərini belə tamamlayır:

*Ey gül, desələr Məsihə: "Qafil*
*Bir özgə nigarə oldu mayil".*
*Təhqiq elə kim, dolansa yüz il,*
*Səndən dəxi qeyrə verməzəm dil.*
*Ərzim bu ki, eyləmə təğafül,*
*Bir qövrə yetiş, günahımı bil!*
*Cəm et neçə əhli-hali- aqil,*
*Onlardan həqiqət eylə hasil –*
*Gər, şərə həmin budur müqabil,*
*Mən həm oluram bu əmrə qayil,*
*Gördün iki şahid oldu adil:*
*Öldür məni, olsun əllərin var!* [8, s.229]

"Gərək" rədifli on bəndlik müxəmməsində "Vaqif kimi həqiqi gözəlliyin nişan və əlamətlərini bir-bir zikr edib, zahiri gözəllik və məlahətlə bərabər, gözəlin əslü nəsəbini dəxi mülahizə edib, onları əvvəlinci şərtlərdən hesab edən" [8, s.230-231] Ağa Məsih şeirin ikinci bəndində yazır:

*Əvvəla şəkk olmaya zati-əbavü cəddinə,*
*Deməyə bir kimsə hərfi-namünasib rəddinə,*
*Yetmiş on dörd gecəlik aytək büluğ həddinə,*
*Çün şəbi-yelda qara saçı bərabər qəddinə,*
*Həm mübarək başı misli-qübbeyi-Mina gərək.* [8, s.231]

Ağa Məsih Şirvaninin Nişat Şirvaninin "Deyiləm" rədifli qəzəlinə yazdığı beş bəndlik təxmisi də məhəbbət mövzusundadır.

*Salma gözdən məni-hicranzadəni, yad elə gah,*
*Bəd günündə qulunu yada salır rəhmli şah,*
*Səni Tanrı, necə fəryad qılıb etməyim ah,* [5, s.256]

– deyən şair Allahın kəràminə sığınaraq ümid edir ki, günahı çox olsa da, məşuqu onu əfv edəcək və o da eşqin sirrini əbədi olaraq gizli saxlayacaq, faş etməyəcəkdir.

Ağa Məsihin məhəbbət mövzusunda yazdığı şeirlərində hadisə və insan təsviri, insanın daxili və xarici aləminin tərənnümü mühum yer tutur. Bu baxımdan onun "Dəxi nə bəzənmək?" şeiri çox səciyyəvidir.

*Bəzm içrə yüzündən götürən dəmdə niqabın,*
*Qanını ləbin şişəyə tutdu meyi-nabın,*
*Başına həva gəldi qədəhlərdə hübabın,*
*Bitab düşüb saqi, nə mümkün verə tabın,*
*Yıxdın evini mən kimi yüz xanəxərabın,*
*Dəxi nə bəzənmək?* [14, s.18]

– və s. bəndlərdə gözəlin zahiri və xarici portretini ustalıqla yaradan şairin bu şeirinə "Vaqif də daxil olmaqla bir çox şairlər nəzirə yazmışlar. M.F.Axundov da Şıxlı Əli Ağanın xahişilə yazdığı bir müxəmməsdə Məsihi xatırlamış, müxəmməsi Məsih kimi yazdığını qeyd etmişdir" [5, s.248]. M.F.Axundzadənin nəzirəsi "Zivər nə səzadır sənə, ey dilbəri-ziba" misrası ilə başlanan müxəmməsdir ki, 1857-ci ildə yazılmşdır.

Ağa Məsih Şirvaninin bir çox əsərlərində zəmanədən və müasirlərindən şikayət mötivləri də poetik əksini tapmışdır. Beş bəndlik "Qalmışdır" rədifli müxəmməs bu baxımdan diqqəti cəlb edir. Əsərdə zəmanəsinin çətinliklərindən, insanların xəyanətindən, zülmün, ədalətsizliyin bütün məmləkəti bürüdüyündən şikayətlənən şair, haqq, ədalət və insanlığın keçmişdə qaldığını, müasirlərindən insani sifətlər görmədiyini bildirərək yazır:

*Məsiha, kəs təməllüq bu cahandan kim xəsarət var,*
*Nə təsiri-dua zahir ərənlərdə, nə hümmət var,*
*Nə alimlərdə şəriyyət, nə xanlarda ədalət var,*
*Nə bir doğru sözü xəlqin, nə bir kəsdə dəyanət var.*
*Həqiqət aşinada, nə vəfa yaranda qalmışdır.* [14, s.27]

Ağa Məsih Şirvaninin ictimai məzmunlu şeirlərinmdən biri də on iki bənddir və hər bəndin sonunda:

*Tövbə, ya Rəbb, xəta rahinə getdiklərimə,*
*Bilib etdiklərimə, bilməyib etdiklərimə,*

– beyti təkrarlanan müsəddəsidir ki, bu əsər "Tövbənamə" adı ilə nəşrlərə düşmüşdür [14, s.28; 5, s.254-255]. Bu əsər haqqında Həmid Araslı yazır: "Şair ömrünün sonunda dünyəvi hisslərdən üz çevirərək "tövbənamə" yazıb gəncliyində dinə müğayir əsərlər yazdığını özü üçün bir "günah" saymışdır" [3, s.248].

Şairin dərin məzmunlu, əslində Yaradanı qarşısında hesabatı olan və Allahdan əvf edilməsi rica olunan bu əsərinin təsiri ilə Mirzə Ələkbər Sabir "Bura say" adlı beş bəndlik satirasını yazaraq "Molla Nəsrəddin" jurnalının 23 avqust 1909-cu il tarixli 34-cü nömrəsində "Məstəli şah Gərgucu" imzası ilə nəşr etdirmişdir [12, № 34].

M.Ə.Sabir müsəddəsin bəndlərinin sonunda təkrarlanan beyti götürərək İran şahı Müzəffərəddinin qardaşı, Məşrutə inqilabı zamanı Avropaya gedən, İrana qayıdarkən camaat tərəfindən Rəşt şəhərində tutulub saxlanılan Zilli Sultanın dilindən "Ya rəbb" sözünü "əttövbə" şəklində verməklə aşağıdakı kimi hər bəndin sonunda təkrarlamışdır:

*Tövbə, əttövbə, xəta rahinə getdiklərimə,*
*Bilib etdiklərimə, bilməyib etdiklərimə.* [12, № 34]

Ağa Məsih Şirvaninin əldə olan əsərlərinin bir qismi tarixi mövzudadır. Onun Quba xanı Fətəli xana həsr etdiyi "Şahnamə" adlı əsərinin mətni əldə olmasa da, 1749-cu ildə Şirvanda baş vermiş savaşa həsr etdiyi müxəmməs formasında yazdığı bir mənzuməsinin mətni var və Ağa Məsih Şirvanidən yazan əksər müəlliflər bu əsərdən bəhs etmişlər.

Tarixdən məlum olduğu kimi, 1749-cu ildə Əhməd xan Şahsevən Nadir şahın ölümündən istifadə edərək müxtəlif xanlıqlara parçalanmış Azərbaycanda hakimiyyəti ələ keçirmək üçün Türkiyə sultanı ilə əlaqəyə girib ondan maddi dəstək alır, Dağıstan xanı Surxay xanın köməkliyi ilə

Şirvan üzərinə hücuma keçir. Bu işdə Surxay xanla yanaşı, İrandan və Azərbaycanın bir sıra xanlarından da Əhməd xana havadarlar tapılır.

Ağa Məsihin tarixi mahiyyət daşıyan mənzuməsindən aydın olur ki, bu savaşda Şahsevən Əhməd xanla Salyan, Bakı, Muğan, Qumuq birləşib Şirvana hücum edirlər. Ağsu çölündə baş verən döyüşdə tərəflər xeyli canlı qüvvə itirsələr də, Əhməd xan və müttəfiqləri qalib gəlir. Şirvanı ələ keçirən Əhməd xan və onun müttəfiqləri orada çoxlu cinayətlər törədirlər. Boğaza yığılan Şirvan camaatı qonşu xanlara şikayət edərək onlardan kömək istəyirlər.

Müəllif təsvir edir ki, camaatın xahişindən sonra Şəki xanı Hacı Çələbi xan, Qarabağ xanı İbrahim xan köməyə gəlir. Ərəş, Ağdam, Quba, Baləkən, Lahıc, Xançobanı, Höyz, Qısallı və s. yerlərdən Şirvana qoşun yeridilir. Ağsuyun Şıxmüzə düzü müharibə meydanına çevrilir. Bu döyüşdə Əhməd xan ağır yara alır, nəhayət, məğlub olaraq öldürülür. Şair "onun ölümünü zülm və şərin aqibəti kimi göstərir" [15, s.511].

Qanlı döyüş səhnələrinin təsvirini verən, xeyli sayda adlar sadalayıb onların igidlik və rəşadətindən bəhs edən şair əsərini bu bəndlərlə bitirir:

*Ol igidlər ki, qəmu tiğzənü sahibi-şəst,*
*Qoydu əl dəstəyi-şəmşirə elə dəstbədəst,*
*Necə ki, Əhməd xanın eylədilər adını pəst –*
*Ki, bular verdilər ol Rüstəmi-dövranə şikəst,*
*Acizəm etməyə tərifini bu dastanın.*

*Ey Məsih, eylədi həqq mərhəməti birlə nəzər –*
*Ki, bu xeyriyyət ilə xaru zəlil oldu əgər,*
*Kimə isə belə dövlət olacaq idi məgər?*
*Dəmü saət, gecə-gündüz, dəxi həm şamü səhər,*
*Necə şükr etməyəlim qüdrətinə Yəzdanın.* [5, s.248]

**Nəticə / *Conslusion***

Yuxarıda qeyd etdiklərimizi ümumiləşdırsək, belə bir nəticəyə gəlmək olar ki, yaradıcılılğının az bir qismi əldə olunan Ağa Məsih Şirvani dövrünün istedadlı şairlərindən olmuş, əsərləri özündən sonrakı poeziyanın inkişafında mühüm rol oynamışdır. Onun şəxsiyyəti və həyat yolu haqqında çox cüzi məlumatlar olsa da, yaradıcılığından əldə olunan nümunələr Ağa Məsih Şirvaninin zəmanəsinin görkəmli şairilərindən biri olduğunu təsdiqləyir.

**Ədəbiyyat / *References***


1. Axundov Mirzə Fətəli. Əsərləri. İkinci cild. – Bakı: Elm, 1988.
2. Axundzadə Mirzə Fətəli. Əsərləri. Üç cilddə, I cild (Tərtib edəni, ön sözün və izahların müəllifi Nadir Məmmədov). – Bakı: Şərq-Qərb, 2005.
3. Araslı Həmid. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi. – Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1956.
4. Azərbaycan ədəbiyyatı tarixi. On cilddə, dördüncü cild. – Bakı: Elm, 2021.
5. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə, III cild (XVII-XVIII əsrlər Azərbaycan şeiri). – Bakı: Şərq-Qərb, 2006.
6. Bakıxanov Abbasqulu ağa. Gülüstani-İrəm. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1951.
7. Berje Adolf. Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə. – Bakı: Elm və təhsil, 2014.
8. Köçərli Firidun bəy. Azərbaycan ədəbiyyatı. Birinci cild. – Bakı: Elm, 1978.

9. Köçərli Firidun bəy. Seçilmiş əsərləri. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1963.
10. Qayıbov Hüseyn Əfəndi. Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir. III cild. – Bakı: Mütərcim, 2002.
11. Məmmədov Xeyrulla. Sultan Məcid Qənizadə. – Bakı: Yazıçı, 1983.
12. "Molla Nəsrəddin" jurnalı, 23 avqust 1909-cu il, № 34.
13. Mümtaz Salman. Ağa Məsih. – "Şərq qadını" jurnalı, 1924-cü il, № 1.
14. Mümtaz Salman. Azərbaycan ədəbiyyatı: Ağa Məsih Şirvani. On ikinci əsr, hicri. Tərcümə və təkrar təb hüququ müəllifinə aiddir. Türkcə "Kommunist" qəzetəsi nəşriyyatı. – Bakı: Üçüncü Beynəlmiləl Dövlət mətbəəsi, 1925.
15. Səfərli Əlyar, Yusifli Xəlil. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. – Bakı: Ozan, 1998.

## Ширванский поэт XVIII века Ага Месих Ширвани

**Назакет Кавказлы**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА

**Резюме.** В статье анализируется творчество одного из малоизученных представителей азербайджанской литературы XVIII века. Подчеркивается, что Ага Месих Ширвани, как и М.П.Вагиф, М.В.Видади и другие знаменитые азербайджанские поэты, творил в основном на азербайджанском языке. Поэт писал в различных стихотворных размерах. В его стихотворениях – гошма чувствуется стиль, близкий к ашугской поэзии, в стихотворениях классического стиля исследователь явно видит приверженность поэта традиции М.Физули. К сожалению, до наших дней сохранилась лишь малая часть творческого наследия А.М.Ширвани.

Автор статьи подчеркивает принадлежность поэта к древнему роду. В XIX-XX вв. известные писатели А.Бакиханов, М.Ф.Ахундзаде, М.Карабаги, известные ученые-литературоведы Ф.Кочарли, С.Мумтаз, Г.Араслы и другие старались выявить как можно больше сохранившихся произведений А.М.Ширвани, они изучили и представили литературной общественности творческое наследие поэта.

В своих лирических стихотворениях поэт воспевает чистую, возвышенную любовь. Автор статьи также уделяет внимание стихотворениям поэта на общественные темы. В статье также отмечается наличие стихотворений, отражающих реальную историю Азербайджана, так называемые исторические мэнзуме.

**Ключевые слова:** классическая литература, тема любви, социальные стихи, исторические поэмы, стихи в жанре тезкире, поэтические традиции